**Məktəbəqədər təhsil müəssisələrinə tərbiyəçi-müəllimlərin işə qəbulu üzrə müsabiqə ilə bağlı ən çox verilən suallar və cavabları**

**Sual: Məktəbəqədər təhsil müəssisələrinə tərbiyəçi-müəllimlərin işə qəbulu prosesi necə həyata keçirilir?**
**Cavab:** Elm və Təhsil Nazirliyi sisteminə daxil olan məktəbəqədər təhsil müəssisələrinə tərbiyəçi-müəllimlərin işə qəbulu nazirlik tərəfindən müsabiqə yolu ilə həyata keçirilir.

**Sual: Müsabiqə hansı mərhələlərdən ibarətdir?**
**Cavab:** Müsabiqə 3 mərhələdən ibarətdir: elektron ərizələrin qəbulu, test imtahanı və müsahibə.

**Sual: Tərbiyəçi-müəllimlərin işə qəbulu üzrə müsabiqədə kimlər iştirak edə bilərlər?**
**Cavab:** Müsabiqədə orta ixtisas və ali təhsil müəssisələrini məktəbəqədər təhsil üzrə bitirmiş, dövlət nümunəli diplom almış, xarici ölkədə aldığı ali təhsil haqqında sənədi tanınmış şəxslər iştirak edə bilərlər.

**Sual: Müsabiqədə iştirak etmək istəyən namizədlər qeydiyyatdan necə keçəcəklər?**
**Cavab:** Müsabiqədə iştirak etmək istəyən namizədlər elektron sənəq qəbulu elan edilən vaxtda miq.edu.az saytında qeydiyyatdan keçməlidirlər. Bunun üçün namizəd şəxsiyyət vəsiqəsinin FİN-i və əlaqə nömrəsini müvafiq xanalara daxil etməli, şəxsi kabinet üçün şifrə təyin etməlidir.

**Sual: Miq.edu.az saytında qeydiyyatdan keçərkən xüsusi diqqət yetirmək lazımdır:**
**Cavab:** Qeydiyyat zamanı namizəd özü şəxsi kabinetə daxil olmaq üçün şifrə təyin edəcək. Hər dəfə şəxsi kabinetə daxil olarkən həmin şifrə tələb ediləcəyi üçün namizədlərə təyin olunan şifrəni unutmamaq tövsiyə olunur.

**Sual: Test imtahanı necə təşkil olunur?**
**Cavab:** Test imtahanında hər bir namizədə məzmun və metodikaya dair 40, pedaqoji və psixoloji yanaşmalara dair 20 sual təqdim edilir.

**Sual: Müsabiqənin test imtahanı mərhələsində namizədlərə nə qədər vaxt verilir?**
**Cavab:** Test tapşırıqlarının cavablandırılması üçün namizədlərə 120 dəqiqə vaxt verilir.

**Sual: Müsabiqənin test imtahanı mərhələsində namizədlərin bilik və bacarıqları necə qiymətləndiriləcək?**
**Cavab:** Bu mərhələdə məzmun və metodika, həmçinin pedaqoji və psixoloji yanaşmalara dair test tapşırıqlarının hər biri 1 bal olaraq hesablanacaq. Ümumilikdə 60 ballıq qiymətləndirmə sistemi tətbiq ediləcək.

**Sual: Test imtahanı mərhələsində səhv cavablandırılan suallar düzgün cavaba təsir göstərəcəkmi?**
**Cavab:** Səhv cavablandırılan test tapşırıqları imtahan nəticəsinə təsir göstərəcək. Məzmun və metodika, həmçinin pedaqoji və psixoloji yanaşmalara dair hər səhv cavablandırılmış test tapşırığı -0,25 bal şəklində hesablanaraq namizədin imtahan nəticəsinə təsir göstərəcək.

Sual: Cari müsabiqənin test imtahanı mərhələsi üzrə minimum tələb (keçid balı) necə müəyyənləşdiriləcək?

Cavab: Müsabiqənin test imtahanı mərhələsində namizədlərin imtahan nəticələri əsasında müsabiqə üzrə minimum tələb (keçid balı) müəyyənləşdiriləcək.